# MƏTNŞÜNASLIQ

https://doi.org/10.59849/2410-5600.2026.1.3
UOT: 09

**Kamandar Şərifov**
*Filologiya elmləri doktoru, professor*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: sherifov41@mail.ru*

## ŞİRVANİNİN ƏSƏRLƏRİ KÖÇÜRÜLMÜŞ AZƏRBAYCAN MƏDRƏSƏLƏRİ

**Xülasə**

Bu məqalədə "Məhəmməd Əmin Şirvaninin (öl.1626) Azərbaycanda ən çox yayılmış və ayrı-ayrı bölgələrdəki kitabxana və mədrəsələrdə üzü köçürülərək çoxaldılmış və tədris prosesinə cəlb edilmiş əsərlərindən biri "Şərh cihətil-vahdə" ("Birlik yolunun şərhi") əsəridir. Alimin bu əsəri Şərqin görkəmli şəxsiyyətlərindən biri olan Şəmsəddin bin Həmzə bin Məhəmməd əl-Fənarinin (1350-1431) məşhur Azərbaycan filosofu Əsirəddin Mufaddal bin Ömər əl-Əbhərinin (ö.1265) "əl-İsağoci fil-məntiq" traktatına yazdığı şərhin müqəddiməsinə həsr olunmuşdur. Məhəmməd Əmin Şirvaninin bu əsəri Azərbaycanın Şəki, Saatlı, Şamaxı, Qarabağ, Zaqatala, Qax və başqa rayon və kəndlərinin, eləcə də Dərbənd şəhərinin rayon və kəndlərinin, Tiflis şəhərinin mədrəsələrində köçürülərək çoxaldılmış və mədrəsələrdə tədris olunmuşdur.

***Açar sözlər:*** *mədrəsə, əlyazma, rayon, kənd, köçürülmüş.*

**Giriş**

*Hələ qədim Şumer və misirlilər tərəfindən yüksək qiymətləndirilmiş katiblik və xəttatlıq sənəti və orta əsrlərdə bir elmi sahə kimi formalaşmış və onun haqqında indiyədək çoxlu miqdarda əsərlər yazılmışdır. Xəttatlığın Mirəli Təbrizi, Mir İmad Qəzvini, Mir Əli Hərəvi, İbn Muqlə, Yəqut əl-Mustəsim, Hafiz Osman və s. kimi böyük şöhrət qazanmış baniləri və davamçıları olmuşdur. Orta əsrlərdə gözəl kalliqrafik xətt ilə yazmaq böyük istedad və alimlik kriteriyası kimi qiymətləndirilmişdir. XIX əsrin görkəmli alimi, pedaqoqu və kitabşünası Şəmsəddin Əbdülqəni Nuxəvi (1817-1879) də belə istedadlı katib və xəttatlardan olmuş, dərs dediyi mədrəsədə xəttatlığı bir fənn kimi tədris etmiş və bu fənnə dair "Məcmə xoş xətt" adlı dərslik də yazmışdır. Alimin bu dərsliyi də digərləri kimi hələ əldə edilməmişdir. Lakin tədqiqatlar nəticəsində aydın olur ki, o, bu dərs vəsaitinə ərəb qrafikası əsasında Şərqdə vüsət tapmış ayrı-ayrı xətt nümunələrini daxil etmiş və onların hər birinə ayrıca izahatlar yazmışdır. Alimə görə gözəl, səliqəli yazı stili insanın xarakterinə və inkişafına müsbət təsir göstərən, insanda yaxşı həyati vərdişlər və keyfiyyətlər yaradan bir amildir. Təsadüfi deyildir ki, rus pedaqogikasının ən görkəmli klassiki olan K. D. Uşinski XIX əsrin ikinci yarısında gözəl xəttin roluna yüksək qiymət vermişdir. Rus pedaqogikasının tarixində hüsnxətti müəllim seminariyasının tədris planına ilk dəfə K. D. Uşinski daxil etmişdir. M. Ş. Vazeh də dərs deyərkən tələbələrin gözəl xətt ilə yazmasına böyük əhəmiyyət vermişdir. M. F. Axundov kaliqrafiya üzrə öz təlimini ondan almışdır.*

Şəmsəddin Əbdülqəni Nuxəvi Xalisəqarızadə xəttatlığa bir fənn kimi xüsusi əhəmiyyət vermişdir. O, yazdığı kitablarda əsasən nəsx və nəstəliq xətt nümunələrindən istifadə etmiş və onları

heç kəsə bənzəməyən özünə xas olan bir üslubda, yüksək incəliklə yazmışdır. Xalisəqarızadənin xəttini başqa xəttatların yazıları arasında asanlıqla müəyyənləşdirmək olur, çünki bu yazılara onun insani keyfiyyətləri və böyük istedadı hopmuşdur. Alimin gözəl xəttatlıq bacarığı, onu müdrik bir alim kimi daha da yüksəltmişdir. Əbdülqəni Nuxəvi yazmış olduğu kitabların yeganə «naşiri» olmuş və onları yüksək estetik zövqlə tərtib etmişdir. Hal-hazırda əlimizdə olan 300-dən çox adda ayrı-ayrı Azərbaycan və Şərq klassikləri əsərlərinin əlyazmaları Xalisəqarızadənin qələminin məhsuludur. Onu da qeyd etmək lazımdır ki, bu onun qələmindən çıxmış əlyazmaların hamısı deyildir. Onların böyük bir qismi hələ bizə gəlib çatmamışdır. Alim hər bir kitabı yazıb, başa çatdırdıqdan sonra ona föhrüst yazmış və bəzi müəlliflər haqqında qısa məlumat da vermişdir. Əbdülqəni Nuxəvi hər hansı bir əsərin üzünü yazarkən müxtəlif rəngli mürəkkəblərdən və ayrı-ayrı qələmlərdən istifadə etmişdir. Əsərin mətnini həmişə qara mürəkkəblə yazırsa da, onun bölmələrinin, fəsillərinin, mövzularının və s. adlarını isə ayrı-ayrı rənglərlə, nisbətən iri şriftlərlə yazmışdır. Bu da onun əlyazmalarına xüsusi gözəllik verməklə bərabər, həm də oxucunun əlyazmadan istifadə etməsini xeyli asanlaşdırır, bu və ya başqa bir əsərdə istənilən bölməni, fəsli və ya mövzunu asanlıqla tapmaq olur. Misal üçün göstərmək olar ki, alim B-733 və M-64 şifrli əlyazma məcmuələrinin yazılmasında ancaq qara və qırmızı mürəkkəbdən istifadə etmişsə, B-679 və B-612 şifrli əlyazma toplularının hər birinin yazılmasında 5 müxtəlif rəngli mürəkkəbdən faydalanmışdır. Bu mürəkkəblərin əksəriyyətini özü hazırlamış, onların bəzilərinin reseptlərini əlyazmalarında qeyd etmişdir. Əbdülqəni Əfəndi kitabların yazılmasında müxtəlif rəngli mürəkkəblərdən istifadə etdiyi kimi, həm də ayrı-ayrı ölçülü qələmlərdən faydalanmışdır. O, bəzi kitablarını adi şriftlərlə yazdığı halda, başqa kitablarını isə adi gözlə oxuması çox çətin olan xırda, narın və incə xətt ilə yazmışdır. Buna misal olaraq M-64 və B-612 şifrli əlyazma toplularını göstərmək olar. Bu topluların hər birinə daxil edilmiş əsərlərin mətnləri çox xırda şriftlərlə yazılmasına baxmayaraq, onlar olduqca oxunaqlı, aydın və gözəl xətlədir. Xalisəqarızadə öz elmi-pedaqoji fəaliyyəti ilə yanaşı tələbələrin bir dərslik kimi istifadə etmələri üçün, bir çox klassiklərin əsərlərinin və şifahi xalq ədəbiyyatı nümunələrinin üzlərini köçürərək, onların arasında yaymışdır. Bununla da o, dərs dediyi mədrəsələrdə bir tərəfdən şagirdlərin dərs vəsaiti ilə təmin olunmasına kömək etmişsə, digər tərəfdən isə Azərbaycan kitabının əlyazma şəklində inkişaf etməsində və yayılmasında böyük xidmətlər göstərmişdir. Orta yüzilliklərdə islam Şərqində mədrəsələr təhsil ocağı kimi fəaliyyət göstərən yeganə mərkəzlər olmuşdur. Mədrəsələrin bir qismi ümumi təhsil verirdisə, başqa bir qismi universitet səviyyəsində həm dini, həm də dünyəvi elm sahələrində mükəmməl təhsil verən və akademik səviyyədə ciddi elmi araşdırmalar aparan elm olcaqları olmuşdur. Onlara nümunə olaraq XI-XII yüzilliklərdə Şirvanda fəaliyyət göstərmiş "Dərül-üləm" ("Elmlər evi") və "Dərül-ədəb" ("Ədəbiyyat evi") adlı akademiyanı, XIII əsrdə Gəncədə yaradılmış universitet səviyyəli mədrəsəni, 1259-cu ildə Marağa rəsətxanasının nəzdində yaradılmış universitet-akademiyanı, Qazan xanın hökmranlığı dövründə (1295-1304) Təbrizin Şam Qazan, yaxud Şənbi-Qazan adlanan hissəsində yaradılmış universitet-akademiyanı, XV yüzillikdə Əhməd Paşa (1428-1497) tərəfindən Axırkələkdə yaradılmış universitet səviyyəli mədrəsəni, XVI yüzillikdə Yaxın və Orta Şərqdə deyil, bütün dünyada böyük şöhrət qazanmış Təbriz miniatür rəssamlıq məktəbini və başqalarını göstərmək olar.

Azərbaycanın müxtəlif şəhər və kəndlərində fəaliyyət göstərmiş mədrəsələr həm də əlyazma kitab mədəniyyətimizin inkişafında başlıca rol oynamış mərkəzlər olmuşdur. Bu mədrəsələrdə təhsil alan uşaqlar dövrünün alim və müəllimlərinin rəhbərliyi altında dərs vəsaitləri ilə yanaşı ayrı-ayrı Azərbaycan və digər Şərq klassiklərinin əsərlərini nüsxədən-nüsxəyə köçürərək mədrəsələrin kitabxanalarında toplamışlar. Bunun nəticəsində də mədrəsələrdə zəngin kitab xəzinələri yaranmışdır. O cümlədən Məhəmməd Əmin Şirvaninin Əlyazmalar İnstitutunun xəzinəsində saxlanılan əsərləri də Azərbaycanın müxtəlif rayon və kəndlərində fəaliyyət göstərmiş mədrəsələrdə köçürülmüşdür. Alimin "şərh cihətil-vahdə" əsərinin əlyazma nüsxələrindən biri Şəkidə Əbdülqəni Nuxəvi Xalisəqarızadənin və Əlican bəy Nuxəvinin mədrəsəsində dövrünün ziyalılarından olan Hacı Musa Əfəndinin rəhbərliyi altında Mahmud bin Hacı Məhəmməd bin Hacı Əhməd tərəfindən köçürülərək, mədrəsədə tədris olunmuşdur [7, v. $24^b$-$46^b$]. Əsərin daha bir nüsxəsi Şəkidə dövrünün

alim və pedaqoqlarından olan Əbdülqəni Nuxəvi Xalisəqarızadənin oğlu Abdulla Əfəndi Nuxəvi Xalisəqarızadənin və Musa bin Hacı Məhəmməd Əfəndi Buminin xidmətində həmin mədrəsədə Məhəmməd Əli əl-Qıraxi əs-Suxi ibn Məhəmmədin qələminin məhsuludur [8, v. 189$^{b}$-222$^{b}$].

Əbdülqəni Nuxəvi Xalisəqarızadənin dərs dediyi Əlican Bəy Nuxəvinin mədrəsəsi qabaqcıl ideyaları yayan dini və dünyəvi elmləri tədris edən böyük elm ocağı olmuşdur. Bu mədrəsə yalnız Şəkidə yox, eyni zamanda Azərbaycanın başqa rayonlarında da böyük şöhrət qazanmışdır. Belə ki, bu mədrəsədə Ağdaş, Balakən, Qarabağ, Qazax, Qax, Xaçmaz və başqa bölgələrdən təhsil alan tələbələr olmuşdur [9, 67-68].



Azərbaycanın ən qədim diyarlarından olan Şirvanda XI yüzillikdə yaradılmış və səkkiz əsrə qədər fəaliyyət göstərmiş universitet-akademiya müxtəlif elm sahələrinin inkişafında misilsiz dərəcədə böyük rol oynamışdır. “Dərül-ülum” və “Dərül-Ədəb” (“Elmlər evi” və “Ədəbiyyat evi”) adlanan bu elm ocağının rəhbəri və banisi Ömər Osman oğlu Kafiyəddin Şirvani tibb, astronomiya, riyaziyyat, inşaat (su qurğuları, mülkü və istehsalat), fəlsəfə, tarix, musiqi (nəzəriyyəsi və ifa qaydaları), təsviri rəssamlıq, siyasətşünaslıq, hərbişünaslıq və filologiya sahəsində elmi istiqamətləri formalaşdırmışdır. 1953-cü ildə Parisdə nəşr olunan elm tarixi ensiklopediyasında Şərqdə elminin inkişafına həsr olunmuş məqalədə XI əsrdə mövcud olmuş Şirvan Elmlər Akademiyası haqqında məlumat verilmişdir [11, I$^{a}$ page 52]. Bu elmi mərkəz Azərbaycan əlyazma kitabının inkişafında da böyük rol oynamışdır. Bu baxımdan Məhəmməd Əmin Şirvaninin yuxarıda göstərilən əsərinin də əlyazmaları Şamaxı mədrəsələrində köçürələrək, təhsilə cəlb edilmişdir. Əsərin daha bir nüsxəsi hicri 1216 (1801)-ci ildə Şamaxıda dövrünün böyük ustadlarından olan Bayram Əfəndinin xidmətində Şamaxılı Əbdülqadir tərəfindən köçürülmüşdür [12, v. 222$^{b}$]. Bu əlyazma toplusuna daxil edilmiş

digər əsərin sonluğunda qeyd edilir ki, onu Şamaxılı Əbdülqadir bin Məhəmməd Əfəndi bin Əli Əfəndi Şamaxıda məşhur olan, əsrin yeganəsi mövlanə əl-Ərməndi Əbdüllətif Əfəndi bin Mustafa Əfəndi bin alicənab Əli Əfəndinin xidmətində köçürülmüşdür [13, v. 104].

Azərbaycanın qədim tarixə və zəngin mədəniyyətə malik Qarabağ bölgəsində fəaliyyət göstərmiş mədrəsələr də kitab mədəniyyətimizin inkişafında böyük rol oynamışdır. Məhəmməd Əmin Şirvaninin göstərilən əsərinin nüsxələrindən biri Əbdülhəlim Əbdürrəhman Əfəndi bin Hacı Abdulla Əfəndi Qarabağinin mədrəsəsində köçürülmüşdür [14, v. 42a-25b]. Bu əlyazma toplusuna daxil edilmiş digər əsər isə Şamaxı mədrəsəsində köçürülmüşdür [15, v. 174a]. Əsərin Qarabağda köçürülmüş daha bir nüsxəsi də vardır [16].

Zaqatala şəhərinin şimalında Böyük Qafqaz dağlarının cənub ətəklərində yerləşən Car kəndinin XV əsrə aid məscid və mədrəsəsi, eləcə də həmin dövrə aid müdafiə məqsədilə tikilmiş, hündürlüyü 10-12 metr olan "Çingizqala abidəsi" vardır. Məhəmməd Əmin Şirvaninin "Şərh cihətil-vahdə" əsərinin bir nüsxəsi bu kənd mədrəsəsində Ömər xan bin Nur əl-Cari tərəfindən köçürülmüşdür [16, v. 60b-89b]. Bu əlyazma toplusuna daxil edilmiş Numan bin Şeyx Səid Şirvaninin "Haşiyə alə şərhi "əl-İsaqoci fil-məntiq" əsərinin sonluğunda qeyd edilir ki, bu əlyazma kitabı Ömər xan bin Nuri əl-İmaci əl-Carinin kitabxanasındandır [17, v. 158a]. Əsərin başqa bir nüsxəsi isə Zaqatala rayonunun Ciş kəndində məşhur alim Əbdülhəlim əl-Cişinin xidmətində Ömər əl-Qabjami tərəfindən köçürülmüşdür [18, v. 52a-79a].

Qax rayonunun İlisu kəndi Azərbaycanın ən qədim tarixi ənənələri olan bir bölgədir. Orta əsrlərdə burada fəaliyyət göstərən mədrəsələr dini və dünyəvi elmləri tədris edən məşhur təhsil ocaqları olmuşdur. Məhəmməd Əmin Şirvaninin göstərilən əsərinin bir nüsxəsi 1303 (1885-1886)-cü ildə katib Yusif bin Ramazan İlisuyi tərəfindən fəzilətli alim Qazi Şamil Əfəndi İlisuyinin mədrəsəsində köçürülmüşdür [19, v. 136a]. Bu əlyazma toplusu Qurban Balakəninin kitabxanasındandır [20, 139a]. Əsərin daha iki nüsxəsi Məhəmməd bin əl-Hac Rəsul Əfəndi tərəfindən İlisu mədrəsəsində köçürülmüşdür [21, 39a; 22, 35a]. Əsərin daha bir nüsxəsi də 1312 (1894)-ci ildə İlisuda Mamay bin Harun İlisuyi tərəfindən köçürülmüşdür. [23, 1b-26b]. Bu əlyazma toplusuna daxil edilmiş Məhəmməd bin əl-Hüseyn əl-Amilinin "Xülasətül-hesab" [80b-123a] əsərinin haşiyəsində yazılmış "Şərh cihətil-vahdə" traktatının mətni 1267 (1850-1851)-ci ildə Dərbəndin Fiy kəndində fəzilətli alim Mahmud Əfəndi Fiyuvinin mədrəsəsində Prim tərəfindən yazılmışdır. Bu abidənin 80a vərəqində qeyd edilir ki, bu əlyazma toplusu Mamay bin Harun əl-İlisuyinin kitabxanasındandır.



Əsərin başqa bir əlyazması 1578-ci ildə Osmanlı İmperiyasının tərkibində Cənubi Qafqazda Şirvan əyalətinin sancağı, hazırda Dərbənd şəhərinin rayonlarından biri olan Axtıda 1216 (1801-1802)-cı ildə Şaban Molla Nur Məhəmməd bin Molla Şaban bin Molla Rəcəb alim Bayram bin Əfəndi bin Molla Qurban əl-Qazi əl-Xaulinin mədrəsəsində köçürülmüşdür. [24, 34-56b].

Səlcuq İmperiyasının sultanı Məlikşahın vəziri Nizamilmülkün fərmanı ilə 1075-ci ildə yaradılmış və 160 ilə yaxın Azərbaycanın İlisu sultanlığının mərkəzi şəhərində (hazırki Dağıstan rayonunun Saxur kəndində) fəaliyyət göstərmiş mədrəsə [25] ilahiyyat və təbiət elmlərini tədris etməklə regionda insanların maariflənməsində və əlyazma kitab mədəniyyətinin inkişafında böyük rol oynamışdır. Məhəmməd Əmin Şirvaninin göstərilən əsərinin bir nüsxəsi 1187 (1773)-ci ildə Ömər bin Məhəmməd tərəfindən mövlanə Əbdürrəhim əs-Saxurinin xidmətində həmin mədrəsədə köçürülmüşdür [25, v. 175b-189a].



“Şərh cihətil-vahdə” traktatının Şərqdə ayrı-ayrı alimlər tərəfindən şərh, haşiyə və təliqələr yazılmışdır. Onlara nümunə olaraq Şeyx Əbdüllətif bin Məhəmməd bin Danğan bin Həmzə əl-Haşəri Dağıstaninin yazdığı böyük həcmli “Utur əl-yasəmin alə “Cihətil-vahdə” [27], Qara Xəlil Həsən bin Məhəmməd ət-Tirəvinin (öl. 1123/1711) “Ər-Risalə əl-auniyyə fi idah əl-haşiyə əs-sədriyyə” [28] və Ömər əl-Cani əl-Kirdalinin “Fəth əl-ğalib aləl-mübtəda ət-talib”i göstərmək olar. Əl-Kirdali bu haşiyəni 1303 (1885/1886)-cü ildə əslən Dağıstanın Saxur kəndindən olan ancaq İlisuda yaşayan Yusif bin Ramazan fəzilətli alim qazi Şamil Əfəndi İlisuyinin mədrəsəsində müəllif nüsxəsindən köçürmüşdür [29, v. 101[a]-136[a]]. Əlyazmada qeyd edilir ki, bu nüsxə Yusif bin Ramazan İlisuyinin kitabxanasından Abdulla bin əl-Hac Şaban əl-Balakəni əl-Bəknəvinin kitabxanasına, oradan da 1313 (1895-1896)-cü ildə Məhəmməd bin alim Qurban Balakəninin kitabxanasına daxil olmuşdur [30, v. 101[a]].

Zeynəddin əl-Bərədustinin "Təliqə alə şərh cihətil-vahfə" əsərinin Əlyazmalar İnstitutunda iki nüsxəsi saxlanılır. Bu təliqənin bir nüsxəsi 1160 (1747)-ci ildə Tiflisdə Xəlil əl-Müdərrisin mədrəsəsində Səd bin Əli bin Əhməd bin Əli [31, v. 62[b]-67[a]], digəri isə əl-İbad Əhməd tərəfindən 1206 (1792)-ci ildə köçürülmüşdür [32, v. 21[a]-25[b]]. İkinci nüsxəyə daxil edilmiş başqa bir əsərin sonluğunda mətnin Əbdürrəzzaq bin Abdulla ət-Tahiri tərəfindən fəzilətli alim Əmir Məhəmməd əl-Qıbçaqinin mədrəsəsində köçürüldüyü qeyd edilir [33, v. 73[b]].

## Nəticə

*Beləliklə, Məhəmməd Əmin Şirvaninin "Şərh cihətil-vahdə" əsəri və ona yazılmış şərh, haşiyə və təliqələr Azərbaycanın Şəki, Saatlı, Şamaxı, Qarabağ, Zaqatala, Qax rayonlarının və kəndlərinin, eləcə də Dərbənd şəhərinin rayon və kəndlərinin, Tiflis şəhərinin mədrəsələrində köçürülmüşdür.*

## Ədəbiyyat siyahısı:

1. Джидди Г. А. Средневековый город Шамаха (IX-XVII в. в.) Баку, 1981, 73 стр; Mehrəliyev E. Şirvan Elmlər Akademiyası. Bakı, 2000; Şərifli K. Azərbaycan əlyazma kitabı və kitabxanaları. Bakı, 2009, səh. 117-119.
2. Azadə R. Nizami Gəncəvi (Həyatı və sənəti). Bakı, 1979, səh. 9-10; ياقوت الحموى . معجم البلدان. الجلد الثانى و التاسع. القامرة. بدون تاريخ. ص. 289
3. Azərbaycan Sovet Ensiklopediyası. XI c. Bakı, Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası. 1982, səh. 352; Məmmədbəyli H. Məhəmməd Nəsirəddin Tusi. Bakı, 1980, səh. 59.
4. Рашид ад-Дин. Переписка. Москва… Наука. 1971; Azərbaycan ədəbiyyatı tarixi. II c. Bakı, Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı. 1960, səh, 83; Şərifli. Əsərləri V c. Bakı, 2020, səh. 94-96; Onullahi S. M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, 1982, səh. 208.
5. «Тифлисские ведомости». №4. 25. Января 1829; Бакиханов А. К. Сочинение, записки, письма. Баку, 1983, ст. 270-278, 320-321.
6. Казиев А. Ю. Художественное оформление Азербайджанской рукописной книги XIII-XVII веков. Москва. 1977.
7. Əlyazma toplusu, B-7472, محمد امين الشروانى شرح جهة الوحدة
8. Əlyazma toplusu, B-2345. محمدامين الشروانى شرحجهةالوحدة
9. Kamandar Şərifli. Əsərləri Ic. Bakı, 2019, səh. 67-68.
10. Mehrəliyev E. Şirvani Elmlər Akademiyası. Bakı, 2000.
11. "La Historil de la Seinse". Paris la volume II. 1953, l a page 52.
12. Əlyazma toplusu, B-7070, محمدامينالشروانشرحجهةالوحدة
13. Əlyazma toplusu, B-7070 , محمدامينالشروانشرحجهةالوحدة
14. Əlyazma toplusu, B-4024 , محمدامينالشروانشرحجهةالوحدة
15. Əlyazma toplusu, B-4024 , محمدامينالشروانشرحجهةالوحدة
16. Əlyazma toplusu, B-457 , نعمان بن شيخ سعيد الشروانى حاشية على شرح اياغين فى المنطق
17. Əlyazma toplusu, B-3532, محمدامينالشروانشرحجهةالوحدة
18. Əlyazma toplusu, B-4709 , محمدامينالشروانشرحجهةالوحدة
19. Əlyazma toplusu, B-4709, محمدامينالشروانشرحجهةالوحدة
20. Əlyazma toplusu, B-5486, محمدامينالشروانشرحجهةالوحدة
21. Əlyazma toplusu, B-6033 , محمدامينالشروانشرحجهةالوحدة
22. Əlyazma toplusu, B-3121, محمدامينالشروانشرحجهةالوحدة
23. Əlyazma toplusu, B-1912, محمدامينالشروانشرحجهةالوحدة
24. Wikimedia.az.az.nina.az/saxur.html.
25. Əlyazma toplusu, B-4266, محمدامين الشروانى شرح جهة الوحدة
26. Əlyazma toplusu, B-3611, الشيخ عبدالطبف بن محمد بن دنغن بن حمزة العثرى الداغستانى عطور الياسمين على جهة الوحدة

27. Əlyazma toplusu, B-6154 , قرة خليل بن حسين بن محمد التيروى. الرسالة العونية فى ايضاح الحاشية الصدرية
28. Əlyazma toplusu, B-7709, عمر المانى الكدالي فتح الغالب على المبتدا الطالب
29. Əlyazma toplusu, B-4709 vərəq 101a.
30. Əlyazma toplusu, B-4337 زين الدين البراد و ستى. تعليعات على شرح جهة الوحدة
31. Əlyazma toplusu, B-2354 زين الدين البرادوستى. تعليعات على شرح جهة الوحدة
32. Əlyazma toplusu, B-2354.

**Kamandar Sharifov**

## AZERBAIJANI MADRASAHS WHERE SHIRVANI`S WORKS WERE COPIED

*Summary*

This article deals with one of the work by Muhammad Amin Shirvani (d. 1626) "Sharh jihatil-wahda" ("Commentary of the path of unity"), the most widespread in Azerbaijan, scripted and copied in the libraries and madrasahs of various regions and used in the process of teaching. This work is written to the introduction of commentary of one of the outstanding people of the East Shamsaddin bin Hamza bin Muhammad al-Fanari (1350-1431) to the tractate "al-Isaghoci fil-mantig" by famous Azerbaijani philosopher Asiraddin Mufaddal bin Omar al-Abhari (d.1265). The mentioned work by Muhammad Shirvani was scripted, copied and taught in the process of teaching in the distircts and villages of Sheki, Saatli, Shamakhi, Garabagh, Zagatala, Gakh, Darband and Tbilisi.

***Keywords:*** *madrasah, manuscript, district, village, copied.*